


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 233 (23.875)

15 dekabr 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Dekabrın 14-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında görüş olub. Görüşdə Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulanıb. Eyni zamanda Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşə dair fikir mübadiləsi aparılıb. Söhbət zamanı, həmçinin Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı məsələlər müzakirə olunub. Eyni zamanda kommunikasiyaların açılması, humanitar xarakterli məsələlər və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Dekabrın 14-də NATO-nun Baş katibinin dəvəti əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Alyansın Baş katibi Yens Stoltenberq arasında görüş olub. Görüşdə NATO-nun Baş katibi Azərbaycanın Alyansın dəyərli tərəfdaşı olduğunu deyib və Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirib. Yens Stoltenberq buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Dekabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə NATO-nun Baş katibi Yens Stoltenberqin Brüsseldə Alyansın mənzil-qərargahında birgə mətbuat konfransı olub.

## Muxtar respublikada sahibkarlığın inkişafına dövlət dəstəyi gücləndirilir

***Son illər həyata keçirilən iqtisadi islahatlar muxtar respublikada sahibkarlığın inkişafına təkan vermiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatın gücləndirilməsində onun rolunu artırmışdır. Keyfiyyətli məhsul bolluğunun yaradılmasında, rəqabətədavamlı istehsal sahələrinin inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında sahibkarlıq həlledici amilə çevrilməkdədir. Muxtar respublikamızda sahibkarlığın daha da inkişaf etdirilməsi, yeni iş yerlərinin və müəssisələrin yaradılması, işgüzar fəaliyyət, biznes innovasiyası təşəbbüslərinin fəal şəkildə dəstəklənməsi, maddi rifahın artmasını şərtləndirən iqtisadi fəallığın stimullaşdırılması qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunacağını söyləməyə əsas verir.***



Muxtar respublika iqtisadiyyatının inkişafında sahibkarlığın rolu böyük olduğundan dövlət tərəfindən özəl sektorun hərtərəfli dəstəklənməsi məqsədilə müxtəlif yardım və təşviq mexanizmləri də tətbiq edilir. Sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına maliyyə dəstəyinin verilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondunun yaradılması özəl sektorun maliyyə ehtiyacının qarşılanmasında genişmiqyaslı işlər görməkdədir.

Son illərdə muxtar respublika iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı layihələr icra edilmiş, xeyli iş yerləri açılmış, sənaye yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Cari ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən qabaqcıl texnologiyalara əsaslanan sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi davam etdirilmiş, mebel, ayaqqabı, alma sirkəsi, unlu qənnadı məmulatlarının istehsalı sahələrinin yaradılması məqsədilə 5 layihənin maliyyələşdirilməsinə 150 min manat kredit ayrılmışdır.

Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihələr digər sahələr kimi, kənd təsərrüfatı sahəsini də əhatə etmişdir. Dövlət maliyyə dəstəyi göstərilmiş layihələr üzrə kənd yerlərində kiçik müəssisələrin yaradılmasına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbatın yerli istehsal hesabına daha dolğun və etibarlı ödənilməsinə nail olunmuşdur. Belə ki, həyata keçirilən layihələr istiqamətində əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı əsas götürülmüş, bu təminatda başlıca rol oynayan kənd təsərrüfatı üzrə 127 layihənin maliyyələşdirilməsinə 3 milyon 999 min manat vəsait verilmişdir.



Kənd təsərrüfatına ayrılmış kreditlər, əsasən, heyvandarlıq, quşçuluq, arıçılıq, tingçilik, bağçılıq, limonçuluq, üzümçülük təsərrüfatlarının, gülçülük istixanasının, süd emalı müəssisəsinin, pendir istehsalı və meyvə-tərəvəz konservləşdirilməsi, yabanı bitkilərin konservləşdirilməsi, kompost və torf istehsalı sahələrinin yaradılmasına yönəldilmişdir.

Muxtar respublikada ailə təsərrüfatlarının inkişafına göstərilən diqqət və qayğı öz bəhrəsini verib, bir sıra kənd təsərrüfatı sahələri ilə məşğul olan çox sayda ailə təsərrüfatları yaradılıb. Ərzaq təhlükəsizliyinin təmin olunmasında ailə təsərrüfatlarının rolunu nəzərə alaraq cari ilin ötən dövrü ərzində fond tərəfindən 75 ailə təsərrüfatına 1 milyon 192 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir.

Son illərdə xidmət sektoru da sürətlə inkişaf edir, bu sahədə xidmət günün tələblərinə uyğun yenilənir. Cari ilin ötən dövrü ərzində fond tərəfindən bu sahədə xidmətin səviyyəsinin daha da yüksəldilməsi üçün 3 layihənin maliyyələşdirilməsinə 577 min manat vəsait yönəldilmişdir.

Muxtar respublikada qadınların iqtisadi sferada fəallığının artırılması üçün müxtəlif həvəsləndirici və təşviqedici tədbirlər görülür. Qadınların biznes sahələri yaratması üçün güzəştli kreditlərin verilməsi, onların sahibkarlığa cəlb olunması belə tədbirlərdəndir. Bunun nəticəsidir ki, son illərdə qadın sahibkarların sayının artması müşahidə olunur.

Muxtar respublikada təsisçisi və sahibkarı qadın olan bir sıra sahibkarlıq subyektlərinə ilkin biznesə başlamaları və fəaliyyətlərinin genişləndirilməsi üçün Sahibkarlığın İnkişafı Fondu tərəfindən göstərilən maliyyə dəstəyinin də mühüm rolu vardır. 2021-ci ilin ötən dövrü ərzində bu məqsədlə fond tərəfindən 19 qadın sahibkara 295 min 600 manat məbləğində güzəştli şərtlərlə kreditlər verilmişdir. Qadınların sahibkarlıq fəaliyyətinə marağının artmasının nəticəsidir ki, 2000-ci ildən bu günə qədər Sahibkarlığın İnkişafı Fondu tərəfindən yüngül və yeyinti sənayesi, xidmət sektorunun müxtəlif sahələri üzrə fəaliyyət göstərən 99 qadın sahibkara 2 milyon 789 min manat həcmində kredit verilmişdir. Bundan başqa, fond sahibkarlığın inkişafına dövlət dəstəyinə dair təşkil etdiyi tədbirlər çərçivəsində qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması, xüsusilə qadınların məşğulluğunun təmin edilməsi məqsədilə daha çox qadın əməyinə ehtiyac duyulan sahələrdə nümunəvi investisiya layihələri hazırlayır və nümunəvi layihələri sahibkarlara təqdim edir.

Cari ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadi inkişafın prioritet istiqamətləri üzrə müəyyənləşdirilmiş sahələrin maliyyələşdirilməsinə 3 milyon 826 min manatdan çox vəsait ayrılmışdır. Ümumilikdə, Sahibkarlığın İnkişafı Fondunun xətti ilə bu günə qədər 1647 layihənin maliyyələşdirilməsinə 172 milyon 432 min manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir.

İl ərzində mütəmadi olaraq fond tərəfindən verilmiş kreditlərin iqtisadi səmərəliliyi araşdırılmış, təyinatı üzrə istifadəsinə nəzarət etmək məqsədilə sahibkarlıq subyektlərində mütəmadi olaraq monitorinqlər keçirilmiş, kreditlərin ödəmə müddətləri və vaxtında geri qaytarılması istiqamətində maarifləndirmə işləri aparılmışdır.

Sahibkarlar, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər muxtar respublikada özəl bölmənin inkişafı üçün yaradılan şəraitdən, əlverişli biznes mühitindən yararlana bilər, dövlətin maliyyə vəsaitlərindən güzəştli qaydada istifadə etmək üçün müvəkkil kredit təşkilatları vasitəsilə Sahibkarlığın İnkişafı Fonduna müraciət edə bilərlər.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

## Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli biznes forumunda muxtar respublikanın nümayəndə heyəti də iştirak edib




Dekabrın 14-də Bakıda Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli biznes forumu işə başlayıb. Tədbirin açılışında Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava, Türkiyənin ticarət naziri Mehmet Muş və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov iştirak ediblər. Bu forum Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi mühüm layihələrin iştirakçısı olan Bakı, Tbilisi və Ankara arasında üçtərəfli əməkdaşlığı daha da gücləndirmək məqsədi daşıyır. Azərbaycan-Türkiyə-Gürcüstan biznes forumu 2012-ci ildən bəri keçirilir. Bakı sayca VI foruma ev sahibliyi edir.

Forum ticarət əlaqələrinin inkişafında, iş adamları arasında işgüzar əlaqələrin genişlənməsində, həmçinin yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynadığından foruma Azərbaycanın Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də qatılıb. Nümayəndə heyətinin tərkibinə muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərindən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının, "Ləzzət Qida Sənaye", "Badamlı Mineral Sular", "Prestij Naxçıvan-Pivəsi" Məhdud Məsuliyyətli cəmiyyətlərinin nümayəndələri təmsil olunublar.

Tədbir çərçivəsində üçtərəfli görüşlər zamanı iştirakçı şirkətlərimiz muxtar respublikamızın sosial-iqtisadi inkişafı, biznes, investisiya mühiti və rentabelli investisiya layihələri barədə xarici şirkət nümayəndələrinə ətraflı məlumat verib və əməkdaşlıq imkanları barədə müzakirələr aparıblar.

Biznes forum Azərbaycan, Türkiyə və Gürcüstan arasında iqtisadi əlaqələrin geniş spektrini əhatə edən işgüzar diskussiyalar, imzalanan mühüm sənədlər və iş adamlarının faydalı görüşləri ilə əlamətdar olub.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

## Operativ vergi nəzarəti günün tələbidir

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən noyabr ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 5 vergiödəyicisində qanunvericiliyin pozulması faktı aşkar olunub. Operativ vergi nəzarəti tədbirləri zamanı 1 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi, 4 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 3 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti*

Arazın kənarında yerləşən Muğanlı Şərur torpağının qədim kəndlərindəndir. Qeydlərimdə kəndin keçmişindən deyil, bu günündən söhbət açacağam. Kənddə 24-dən çox ailə yaşayır. Əhalisinin sayı 1200-ə yaxındır. Adətən, müasir kənd deyəndə cərgə ilə düzülmüş yaraşıqlı evlər, kəndin mərkəzində olan istirahət zonası, müxtəlif məişət xidməti obyektləri, xəstəxana, uşaq bağçası, abad yol və sair gözlərimiz önündə canlanır.

...Son illərdə kənddə xeyli yaşayış binaları tikilsə də, o, müasir kəndə oxşamır. Tikilən binalar kəndin simasını o qədər də dəyişməyib. Çünki bu evlər layihə əsasında deyil, hər

# Naxçıvan dünən

## Bir kəndin qayğıları

kəsin zövqünə görə, necə gəldi tikilir. Son 40 ildə kənddə sosial obyekt adında cəmi bir məktəb istifadəyə verilib. Bundan başqa, heç bir sosial məişət obyekti tikilməyib.

Bir neçə il bundan əvvəl kənddə artezian quyusu qazılıb. Quyudan çıxan su isə içmək üçün yararsızdır. Təəssüflər olsun ki, kənd əhalisinin içməli suya olan tələbatı bu günədək ödənilməyib. Kəndə radio, təbii qaz, su xətləri çəkilməyib. Görülən işlər isə ala-yarımçıqdır. Kəndin axşamları cansıxıcıdır. Evlərdə olan elektrik lampaları gərginliyin normal olmaması üzündən közərir. Bu səbəbdən də camaat televizora da rahat baxa bilmir. Kənddə əmək ehtiyatları çox olsa da, iş yeri tapılmır. Gənclərin asudə vaxtının və istirahətinin lazımi səviyyədə qurulması üçün şərait yaradılmamışdır. Burada fərdi mal-qaranın inkişafı da yaxşı vəziyyətdə deyil. Əvvəllər elə bir ailə olmazdı ki, qapısında camışı olmasın. İndi belə ailələri barmaqla göstərirlər. Məhsuldar heyvanlar kəsildi və yaxud ətliyə verildi. Otlağın, örüşün olmaması üzündən kəndli qapısında heyvan saxlaya bilmir. Mövcud otlaqların bir hissəsi üzümçülüyün inkişafı üçün ayrılmış, bir hissəsi isə şoranlaşıb istifadəsiz qalmışdır. 100 hektar yararlı torpaq sahəsi isə sərhəd zonasında qalıb. Otlaq yox, örüş yox. Kəndli isə qatıq, pendir üzünə həsrətdir...

***“Şərq qapısı” qəzeti***
***1 aprel 1990-cı il***

# və bu gün

## Yoxsulluq, pərişanlıq məngənəsindən bolluq, firavanlıq mərhələsinə...

***Ötən əsrin 90-cı illərinin əvvəlində bugünkü firavanlığımızın, inkişafa, tərəqqiyə, qalib dövlət kimi dünyanın aparıcı ölkələri arasında söz, nüfuz haqqına sahib olmağımıza gətirib çıxaran yolun təməli qoyuldu. Ölkə Prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə qeyd etdiyi kimi, müstəqilliyimizin bərpasına məhz 1990-cı ildə Naxçıvan Muxtar Respublikasında başlanıldı, xalqın xilaskarlıq missiyasını öz üzərinə götürən ümummilli liderimiz Heydər Əliyevin xüsusi dəstxəti ilə ölkənin gələcək inkişaf konsepsiyasının ilk səhifələri qədim diyarımızda yazıldı. Nəticədə, “Şərq qapısı” qəzetinin 1 aprel 1990-cı il nömrəsindəki “Bir kəndin qayğıları” sərlövhəli və digər bu kimi yazılarda yer alan ayrı-ayrı yaşayış məntəqələrimizdə hökm sürən ürəkağrıdan, cansıxıcı mənzərələr tezliklə aradan qaldırılmağa başlanıldı...***

Gəlin Şərur rayonunun Muğanlı kəndinin dünəninə boylanıb qısa zamanda qət edilən uzun yola nəzər salaraq yaşayış məntəqələrində sakinləri yoxsulluq, pərişanlıq məngənəsində sıxan halların öz yerini necə bugünkü bolluq, firavanlıq mərhələsinə ötürdüyünü, müxtəlif istiqamətlər üzrə əldə olunan inkişafın mahiyyətinə vararaq faktlarla əsaslandırmağa çalışaq. “Bir kəndin qayğıları” yazısında kəndlini fərdi olaraq sıxan, onun əlini işdən soyudan, ümumən isə kəndin gözəlliyinə kölgə salan, xələl gətirən, tərəqqisinə əngəl yaradan məsələ həmin dövrdə quruculuq proseslərinin durğunluğa düçar olması idi. Yuxarıda da qeyd etdiyimiz kimi, inkişaf konsepsiyasının əsası qoyulduqdan sonra, təbii ki, ölkə üzrə ilk olaraq muxtar respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş verdi. Ulu öndərin yoluna sədaqətin, aparılan uğurlu siyasətin nəticəsində baş alıb gedən siyasi və iqtisadi böhran tamamilə aradan qaldırıldı, bütün sahələrdə olduğu kimi, inşaatda da inqilabi dəyişikliklər baş



*Bu gün*
*Babək rayonu,Yuxarı Buzqov kənd mərkəzi*


*Dünən*

verdi, ucqarlardan başlayaraq kəndlərimiz bir-bir abadlaşıb, müasir ünvanlar sırasına qoşuldu, kəndlinin daimi mavi yanacaq, elektrik, su və digər kommunal problemləri öz həllini tapdı. İnşaatda istifadə edilən materiallara olan tələbatın yerli imkanlar hesabına ödənilməsi üçün ayrı-ayrı müəssisələr fəaliyyətə başladı ki, bununla həm əlavə xərclərin qarşısı alındı, həm də vaxt itkisi aradan götürüldü. Nəticədə, sovet dövründə illərlə tikinti növbəsinə düzülən obyektlərin inşası indi tez bir zamanda, həm də əvvəlkindən qat-qat keyfiyyətlə, dövrün tələblərinə cavab verən müasir zövqə uyğun şəkildə aparılır. Statistik nəticələr də tikinti-quruculuq sahəsində böyük ölçüdə inkişafın, tərəqqinin getdiyini göstərir: 1995-2021-ci illərdə muxtar respublikanın kəndlərində 144 kənd mərkəzi, 147 ümumtəhsil məktəbi, 192 səhiyyə ocağı tikilərək, 29 kənd mərkəzi, 91 ümumtəhsil məktəbi, 35 səhiyyə ocağı yenidən qurularaq istifadəyə verilib, lazımi kommunal təsərrüfatlar yaradılıb.

Muxtar respublikada bütün sahələrdə artan yüksəlişi, əldə olunan statistik göstəriciləri ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvana hər səfərində qeyd edib, burada görülən işlərdən, həyata keçirilən tədbirlərdən razı qaldığını dönə-dönə dilə gətirib: ***“Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir, çox sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır... Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir... Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm”.***

Muxtar respublikamızın kəndlərində quruculuq tədbirlərinə start verilmədən öncə bekarçılıq əlamətləri, zərərli vərdişlər aşılayan, insanları həm bioloji, həm də psixoloji mərəzə yoluxduran naqisliklərin aradan qaldırılması qarşıya məqsəd qoyuldu. Belə ki, yaşayış məntəqələrində antisanitariya ünvanları funksiyasını “uğurla daşıyan”, ayrı-ayrı işbazların əlində qazanc mənbəyinə çevrilən pərakəndə “komsiyon”lar, gəncləri iş-gücdən uzaq salan, “qeybət quyusuna” çevrilən “çayçı”lar ləğv edilərək yerində yaraşıqlı, müasir üslubda kənd və xidmət mərkəzləri ucaldıldı. Quruculuq işlərinin üstün cəhətlərindən biri də insanların bütün zəruri tələbatlarının nəzərə alınması, müxtəlif yönlü xidmətlərin eyni məkanda cəmləşməsi və gələcək perspektivlərin düşünülməsi oldu. Reallaşdırılan tədbirlər nəticəsində əvvəllər balaca köşklərə, dükanlara oxşayan, nəmişlik çəkən yerlərdə qərarlaşan icra nümayəndəlikləri, bələdiyyələr, statistika və digər struktur qurumlar hər cür avadanlıqlarla təchiz olunan binada fəaliyyətə başladı. Tibb, baytarlıq məntəqələrinin, rabitə, poçt bölmələrinin yaradılması sosial, kommunal xidmətlərin daha asan əlçatanlığını təmin etməklə kənd sakinlərinin, xüsusilə də ahıl, pensiya yaşlı insanların əvvəllər mövcud olan çətinliklərinə son qoydu. Bir ailə üçün vacib olan bütün ərzaq, təsərrüfat mallarının satıldığı xidmət mərkəzlərində ət dükanı, bərbərxana, gözəllik salonlarının tikilməsi gənclərin işlə təminatına töhfə verməklə bərabər, həm də sakinlərin əlavə vaxtlarının, xərclərinin sərfini aradan götürdü.


*Bu gün*
*Şərur rayonu, Diyadin kənd tam orta məktəbi*


*Dünən*

“Dünyanı dəyişdirmək üçün istifadə edə biləcək ən güclü silah təhsildir” fikri tarixin heç bir dönəmində yanıltmayıb insanları. Ancaq hava, su, çörək qədər vacib olan bu silahdan düzgün istifadəni təmin etmək, imkanlarından lazımınca yararlanmaq da başlıca şərtdir. Bu mənada, müstəqillik illərində muxtar respublikamızın bütün kəndlərində ən müasir yenilikləri, texnologiyaları özündə cəmləşdirən təhsil ocaqlarının tikilməsi, mütərəqqi tədris üsullarının tətbiqi də məhz etibarlı sabahımız naminə bugünkü uşaqlara layiqli təhsilin verilməsi məqsədini daşıyır. Artıq çoxdandır ki, reallaşdırılan inşaat işləri sayəsində yeniləşən məktəblər ölkəmizin gələcəyi sayılan uşaqların bilik dünyasına əsaslı təsir göstərib, işıqlaşan otaqlar, elektron lövhəli siniflər orada dərs keçən müəllimlərin, öyrənən şagirdlərin həyat yolunu da aydınladıb. Dəqiq fənlərin praktik surətdə mənimsənilməsi üçün laboratoriyaların, xüsusilə də STEAM kabinələrinin yaradılması elmi-texniki tərəqqiyə yol açmaqla müəllimlərin dünya təhsil sistemi ilə ayaqlaşmalarına, şagirdlərin daha mükəmməl, bacarıqlı, dünyagörüşlü gənclər kimi formalaşmasına geniş üfüqlər açmaqdadır. Əldə olunan uğurlu nəticələrin sorağı da ilbəil daha yüksək səslə gəlməkdədir...

Muxtar respublikamızın quruculuq ərməğanına çevrilən kəndlərinin hər birində tikinti işləri çərçivəsində insan sağlamlığı amili ön planda dayanır. Səhiyyə xidmətlərinin uğurlu icrası üçün kəndlərdə lazımi tibbi inventarla, ixtisaslı kadrlarla təmin olunan həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin istifadəyə verilməsi sakinlərin dövlətə sevgisini daha da artıraraq daim minnətdarlıq hissi ilə qarşılanır.

Bildiyimiz kimi, yaxın günlərdə müasir kəndlər sırasına Babək rayonunun Göynük yaşayış məntəqəsi də qoşuldu. Kənd sakini Vidadi Əzimov bizimlə söhbətində bu yaşayış məntəqəsinin timsalında muxtar respublikanın bütün kəndlərinin bugünkü mənzərəsini gözlər önünə sərərək dünənimizə işıq salan “Bir kəndin qayğıları” sərlövhəli yazı kimi, orada qaldırılan taleyüklü məsələlərin də həllini taparaq çoxdan arxivə salındığını faktlarla təsdiqlədi. Qeyd etdi ki, ucqar dağ kəndi Göynükdə sovetlər dönəmində heç bir yeni sosial obyekt inşa edilməyib. Firavan həyat, gözəl yaşayış üçün nə yaradılıbsa, hamısı müstəqillik illərinə aiddir: – Ata-babadan dolanışığımız, əsasən, əkinçilik, arıçılıq, heyvandarlıqla məşğul olmaqla çıxıb. Bu gün həmin sahələrdə iş qurmaq imkanlarımız daha da genişlənib. Dövlətimizin diqqət və qayğısı sayəsində günü-gündən təsərrüfatlarımızı xeyli inkişaf etdirir, məhsul istehsalını ilbəil artırırıq. Dünənimiz barədə soruşsan, deyərəm ki, əvvəllər ən böyük problemimiz yollarla bağlı olub, rayon mərkəzinə, Naxçıvan şəhərinə gedib-qayıtmaq üçün çətinliklərlə çox qarşılaşmışıq. İlin yağıntılı dövrlərində vacib bir işin, xəstəliyin olurdusa, vəziyyət daha acınacaqlı, dözülməz hal alırdı. İndi şükürlər olsun, artıq bütün problemlərimiz öz həllini tapıb, yollarımız abadlaşıb, övladlarımız gözəl, yaraşıqlı məktəblərdə təhsil alır, gələcəyin vətənpərvər gəncləri kimi böyüyürlər. Halbuki bizim dövrün şagirdləri belə bir məktəbi heç xəyalında canlandıra bilməzdi, nəinki reallıqda görə bilə. Yeni istifadəyə verilən xidmət mərkəzindən məişətdə istifadə üçün nə istəsən tapıb almaq olar. Su, qaz, elektrik, internet və digər kommunal xidmətlərdən fasiləsiz surətdə, lazımınca faydalana bilirik. Sağlamlığımızın qeydinə qalan tibb məntəqəsi ilə yanaşı, təsərrüfatımızda bəslədiyimiz heyvanları da xəstəlikdən qorumaqda böyük köməkçimiz olan baytarlıq xidməti göstərilir. Bir sözlə, kənd sakinlərinin rahat yaşayışı üçün nə lazımdırsa, Göynükdə onların hamısı vardır. Bütün kənd camaatı adından yaradılan əlverişli şəraitə görə dövlətimizə minnətdarlıq edirəm.

Dünənimizdən boylanan “Bir kəndin qayğıları” sərlövhəli yazının hər cümləsi insanın ürəyini sızlatsa da, ən ağrılı, acılı məqam məhz kəndlərdə torpaqların başsız, sahibsiz qalması, otlağın, örüşün yoxluğundan heyvandarlığın məhv olması, kəndlinin qatıq, süd, pendir kimi təbii məhsulların həsrətini çəkməsi idi. Muxtar respublikamızın kəndlərindəki acınacaqlı hallar zamanla həll olunası deyildi və illərlə çəkilən zəhmət, atılan müdrik addımlar sayəsində ilmə-ilmə quruldu, naxış-naxış yaradıldı bugünkü inkişaf mənzərəsi. Kəndlinin torpaqla bağlı məsələsi də ölkə üzrə ilk olaraq Naxçıvanda öz həllini tapdı, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşdı. Belə ki, o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edildi. Culfa rayonunda respublikada ilk dəfə olaraq ictimai təsərrüfatlarda islahata başlanıldı və yeni özəl təsərrüfat qurumları yaradıldı. Bu təcrübə sonralar 1993-cü ildə respublikada aqrar islahatların aparılmasına hazırlıq dövründə nümunə rolunu oynadı və müxtəlif bölgələrdə kəndlilərin birləşdiyi kəndli (fermer) təsərrüfatlarının yaradılması ilə nəticələndi...

Torpağın öz sahibinə qaytarılmasından sonra illərin qayğısızlığından, biganə münasibətindən təngə gəlmiş, “dil-dodağı” cadar-cadar olmuş, sinəsini tikan basmış sahələr bərəkət ətirli yaşıllıqlara büründü, kənd təsərrüfatının bütün istiqamətləri üzrə inkişaf göstəricilərinin ilbəil artım tempi nəzərə çarpmağa başladı. Ayrı-ayrı dövrlərdə qəbul olunan, praqmatik düşüncədən qaynaqlanan Dövlət proqramlarının uğurlu icrası nəticəsində taxılçılıqdan tutmuş tütünçülüyə qədər, eləcə də heyvandarlıqda, balıqçılıqda, arıçılıqda tənəzzül prosesləri öz yerini tərəqqiyə verdi...

Kənd təsərrüfatı mütəxəssisləri də qeyd edirlər ki, aqrar sahənin inkişafında diqqət yetiriləsi əsas məqamlardan biri məhz istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə qatılması, mövcud su ehtiyatlarından səmərəli istifadə olunması və suvarmanın təkmilləşdirilməsidir. Bu məqsədlə ötən illərdəAraz çayı üzərində hidrotexniki kompleksin, Heydər Əliyev, Arpaçay, Sirab Su anbarlarının, Sədərək, Naxçıvan, Əlincəçay suvarma sistemlərinin işə salınması, Nehrəm Su Anbarının tikilməsi, qapalı suvarma şəbəkələrinin qurulması, subartezian quyularının qazılması və digər tədbirlər həyata keçirildi. Bundan başqa, aparılan meliorativ tədbirlər sırasında qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alındı, yararsız torpaqların münbitliyi artırılıb yararlı hala salınaraq kəndlinin ixtiyarına verildi.

Əkinçiliyin davamlı inkişafına yol açan digər bir məsələ isə torpaq mülkiyyətçilərinin lazımi toxum, texnika və gübrələrlə təminatıdır ki, bu da dövlətin birbaşa dəstəyi,“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti, “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti və Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin xətti ilə, eləcə də bölgələrdəki iri təsərrüfatların hesabına reallaşdırılır. Digər tərəfdən təsərrüfatçılar müxtəlif məşğuliyyət növləri üzrə subsidiya və pulsuz dərman preparatları ilə təmin olunurlar ki, bu da onlara stimul verməklə məhsul istehsalını artırmalarına sövq edir. Heyvandarlıq təsərrüfatlarının genişləndirilməsi, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində baytarlıq işlərinə tələbkarlığın artırılması, süni mayalandırma tədbirlərinin görülməsi bu sahədə də inkişafa təkan verməklə ət, süd, yun istehsalına əsaslı surətdə təsir göstərib.Yaradılan bütün bu və digər sadalamadığımız

*Ardı 3-cü səhifədə*



*Şərur rayonu, Muğanlı kəndi bu gün*

üstün cəhətlərin nəticəsidir ki, əgər 1995-ci ildə 25476,6 hektar ərazi əkilirdisə, 2020-ci ildə 63405 hektar sahədə əkin aparılıb, ümumilikdə, kənd təsərrüfatı məhsulu 1995-ci illə müqayisədə 13,9 dəfə artaraq 537 milyon 584 min 800 manat olub.

Milli kimliyimizdən soraq verən dastan, rəvayət və nağıllarımızda hər zaman xalq arasında, cəmiyyətdə, ailədə birlik-bərabərlik, bir-birinə arxa durmaq, kömək əlini uzatmaq əsas həyat amallarından sayılıb. Böyük qələbəmizi şərtləndirən bu üstün keyfiyyətlər, eləcə də dövlətimizin yaratdığı əlverişli şərait son illərdə yüzlərlə ailə təsərrüfatlarının da yaranıb formalaşmasına imkan verib. Muxtar respublikamızda belə təsərrüfatların inkişafı üçün qəbul olunan Dövlət proqramlarının uğurlu icrası, keçirilən festival və yarmarkaların effektivliyinin nəticəsidir ki, "Bir kəndin qayğıları" yazısında gündəmə gətirilən, vaxtilə başsız qalan torpaqlarda indi arxası, dayağı qüdrətli dövlətimiz olan xeyli sayda ailə təsərrüfatları fəaliyyət göstərir, pendirə, qatığa həsrət qalan kəndli bu gün onlarla adda, yüzlərlə çeşiddə məhsullarını təkcə daxili bazara çıxarmaqla kifayətlənmir, xaricə də ixrac edir. Müstəqilliyimizin ilk illərində Şərur rayonunda qurulan ailə təsərrüfatlarından biri Düdəngə kəndində yaşayan Ağayevlər ailəsinə məxsusdur. Ailə təsərrüfatının başçısı Faiq Ağayev dedi ki, sovetlər dönəmində kolxozda aqronom, baş aqronom, baş mütəxəssis vəzifələrində çalışdığım üçün əkin-biçin işlərinə dərindən bələdəm. Ölkəmizdə müstəqillik illərində uğurla aparılan torpaq islahatı əkinçiliyə bağlı olan digər insanlar kimi, məni də təsərrüfat qurmağa sövq etdi. Beləcə, torpaq götürüb işə başladım. Zaman ötdükcə fəaliyyət sahəmi daha da genişləndirib ailə təsərrüfatı formasına saldım. Artıq bir neçə ildir ki, özümə aid 6 hektar, icarəyə götürdüyüm 5 hektar torpaqda taxıl, qarğıdalı, kartof, soğan və digər tərəvəz bitkiləri əkib-becərirəm. Şərur torpaqları çox bərəkətlidir, hər tədarük dövründə bunun nəticəsini görürəm. Yığılan məhsulun yaxşı da alıcısı vardır. Bazar tələbatından artıq məhsullarımı keyfiyyətli qalması üçün soyuducu anbarlara yığır, mövsüm vaxtı yaxşı qazanc əldə edirəm. Bu il qarğıdalı sahəsindən 120-130, taxıl sahəsindən 80 sentner, həmçinin 40 ton kartof, 40 ton soğan məhsulu götürmüşəm. İstənilən sahədə uğur qazanmanın yolu birlikdən, bərabərlikdən keçir. Mən də işlərimi təkbaşına deyil, həyat yoldaşımın, övladlarımın köməyi ilə görürəm. Mövsüm vaxtı 10-a yaxın işçi də cəlb edirəm təsərrüfata. Dövlətimizin yaratdığı şəraitdən də çox razıyam. Festivallarda, yarmarkalarda iştirak edir, məhsullarımı geniş alıcı kütləsinə təbliğ edirəm. 35 illik təsərrüfat fəaliyyətim də qiymətsiz qalmayıb. 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2-ci dərəcəli "Əmək" ordeninə layiq görülmüşəm. Fürsətdən istifadə edib bir daha biz zəhmətkeşlər üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edirəm.

***Deyirlər, dünəni xilas etmək əlimizdə olmasa da, sabahı qazanmaq və ya itirmək öz əlimizdədir. Göründüyü kimi, "Bir kəndin qayğıları" sərlövhəli yazı ilə dünənimizdən başlayıb bu günümüzə doğru irəlilədikcə hər addımda inkişaf, tərəqqi, firavanlıq dolu anlarla, faktlarla təsdiqini tapan yüksəliş göstəriciləri ilə qarşılaşırıq, aparılan uğurlu siyasət, həyata keçirilən mütərəqqi ideyalar, görülən qabaqcıl işlər belə deməyə əsas verir ki, biz inamlı sabahlarımızı, parlaq gələcəyimizi çoxdan təmin etmişik. Elə yoxsulluq, pərişanlıq məngənəsindən bolluq, güzəranlıq mərhələsinə uzanan bu müdrik yola ilk təməl daşının qoyulduğu gündən...***

✍ **Nail ƏSGƏROV**

## "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılıb

*Dünən "Şərq qapısı" qəzetinin redaksiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan "Tədbirlər Planı"na əsasən redaksiya tərəfindən "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə 1 oktyabr-30 noyabr tarixlərində elan edilən yaradıcılıq müsabiqəsinin mükafatlandırma mərasimi təşkil olunub.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Rəmzi İbrahimov tədbirdə çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamını muxtar respublikada mətbuatın inkişafına göstərilən yüksək diqqət və qayğının bariz nümunəsi hesab edib. Qeyd olunub ki, ölkəmizdə milli mətbuatımızın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hər bir sahədə ulu öndərin yolunu layiqli şəkildə davam etdirən Prezident cənab İlham Əliyev mətbuat sahəsinə də xüsusi diqqət göstərir. Bu gün Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikamızda jurnalistikanın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, kadrların hazırlanması üçün hamilik tədbirləri diqqətdə saxlanılır, kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin fəaliyyəti üçün hər cür şərait yaradılıb. "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsi də bu sahədə görülən işlərin daha bir nümunəsidir.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova böyük maarifçilik məktəbi, mütərəqqi ideyaların beşiyi sayılan "Şərq qapısı" qəzetinin ictimai-siyasi fikir tariximizdəki, milli-siyasi təfəkkürün formalaşması və inkişafındakı rolundan, müstəqillik illərində muxtar respublikada aparılan uğurlu media siyasəti nəticəsində "Şərq qapısı"nın dünya standartlarına cavab verəcək mətbuat orqanı səviyyəsinə yüksəldilməsinə nail olunduğunu bildirib.

Vurğulanıb ki, muxtar respublika rəhbərinin jurnalistikanın inkişafı istiqamətində verdiyi tövsiyə və tapşırıqlar redaksiya kollektivi üçün başlıca fəaliyyət prinsipləri rolu oynayıb. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncam, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısıdır. Sərəncama əsasən həyata keçirilən tədbirlərin muxtar respublikamızın mətbuat tarixinin müasir milli və bəşəri ideyalar müstəvisində yenidən araşdırılıb öyrənilməsinə töhfə verəcəyini bildirən baş redaktor qeyd edib ki, bu tarixi Sərəncam, eyni zamanda biz jurnalistlər qarşısında muxtar respublikamızda həyata keçirilən məqsədyönlü siyasətin layiqli təbliğatçısına çevrilmək kimi mühüm vəzifə də qoyur.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov qeyd edib ki, "Şərq qapısı" həyata vəsiqə alan bir gündən xalqın maarifləmməsinə, onun dününinin, bu gününün öyrənilməsinə, Azərbaycan elmi və ədəbi mühitinin inkişafına böyük töhfələr verib. Bu qəzet həmişə tarixi amala, sarsılmaz əqidəyə xidmət edib, haqqın, ədalətin carçısı olub insanları saf ideallar uğrunda mübarizəyə səsləyib, Azərbaycançılıq məfkurəsinin həyata keçirilməsinə xidmət edib. Bu mətbu orqan hər bir oxucuda Azərbaycanın sabahına inam yaratmaq funksiyasını ləyaqətlə daşıyıb. Buna görədir ki, qəzet azad və demokratik cəmiyyətdə, Azərbaycanın mətbuat sistemində özünə layiqli yer tutub. "Şərq qapısı" kollektivi bu gün də üzərlərinə düşən şərəfli missiyanı uğurla davam etdirir.

Çıxış edənlər muxtar respublika jurnalistləri adından mətbuata göstərdiyi yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra mükafatlandırma mərasimi olub. "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov "İllər, sizdə nəyim qaldı..." publisistik məqalələrdən ibarət kitabı ilə I yerə, Naxçıvan Televiziyasının hazırladığı "Yüz ilin mətbuatı" sənədli filminin ssenari müəllifi Ruhiyyə Rəsulova, "Şərq qapısı" qəzetinin əməkdaşı Güntac Şahməmmədli "Müstəqillik illərində muxtar respublikada təhsil inkişafının ən yüksək zirvəsinə çatıb" məqaləsi ilə II yerə, jurnalist Arif Bayramov "İnformasiya blokadasından demokratik mətbuata" məqaləsi, şair-publisist, tərcüməçi Elxan Yurdoğlu "Əsrin əsəri, yaxud mənim ən böyük və ən açıq tribunam" publisistik yazısı, "Arazın səsi" qəzetinin əməkdaşı Səriyyə Salahova "Azərbaycan mətbuatı tarixində mühüm rolu və böyük xidmətləri olan doğma, qocaman "Şərq qapısı" qəzeti" məqaləsi ilə III yerə layiq görülüblər. Qaliblərə diplom və pul mükafatları təqdim olunub, onlar muxtar respublikada jurnalist yaradıcılığının qiymətləndirilməsinə görə minnətdarlıq ediblər.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Kitab təqdimatı keçirilib



Kitab təqdimatı Kəngərli Rayon Mədəniyyət Sarayında reallaşıb. Gənclər və idman nazirinin müavini Məcid Seyidov və Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova tədbirin məqsəd və əhəmiyyəti barədə danışıblar. Bildirilib ki, gənclərin iştirakı ilə mütəmadi kitab təqdimatları, oxunması zəruri olan kitabların müzakirələri keçirilir. Bugünkü kitab təqdimatının məqsədi gənclərdə mütalıə mədəniyyətinin yüksəldilməsi, onların 1995-2019-cu illərdə muxtar respublikada gedən inkişaf prosesləri ilə müfəssəl formada məlumatlandırılmasından ibarətdir. Qeyd olunub ki, həmin kitab Naxçıvanın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edən fundamental tədqiqat əsəridir.

Muxtar respublikanın keçdiyi inkişaf yolundan, həyata keçirilən layihələr və qazanılan nailiyyətlərdən geniş şəkildə bəhs edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev sözügedən monoqrafiyanın əsas bölmələri barədə məlumat verib. Bildirilib ki, muxtar respublikada aparılan məqsədyönlü islahatlar, mühüm əhəmiyyətə malik Dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvanın sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qoruması faktı təhlil edilib, demoqrafik proseslər və məşğulluq problemlərinin həlli, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələr, o cümlədən ərazi, qida və enerji təhlükəsizliyinin qorunması ilə bağlı icra olunan işlərin sistemli inkişafı araşdırılaraq kitabda əks etdirilib. Nəşrdə, həmçinin tarixi irsin qorunması, turizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər geniş şərh olunur, Naxçıvanda Heydər Əliyev ideyalarına dərin sədaqət, uğurlu idarəetmə sayəsində bütün sahələrdəki intibah təhlil edilir, gələcək müvəffəqiyyətlər proqnozlaşdırılır.

Tədbir iştirakçıların müəllifə ünvanladığı suallar əsasında müzakirə şəklində davam edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Müəllimlərin işə qəbulu üçün növbəti test imtahanları aparılır

Müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün Dövlət İmtahan Mərkəzi tərəfindən elan edilmiş növbəti müsabiqənin test imtahanlarına start verilib.

Bu il də ənənəvi qaydada ikincisi keçirilən müsabiqəyə ən çox Şərur (56), Ordubad (35) və Şahbuz (19) rayonlarından olmaqla, ümumilikdə, 160 vakant vəzifə çıxarılıb. Budəfəki müsabiqədə daha çox müraciət Şərur (146), Ordubad (91) və Sədərək (47) rayonları üzrə olub. 449 namizədin bilik mübarizəsi aparacağı imtahanda ən sıx müsabiqə vəziyyəti ingilis dili (91), ibtidai sinif (72) və riyaziyyat (59) müəllimləri üzrə qeydə alınıb. Ən çox vakant vəzifə çıxarılan ixtisaslar isə coğrafiya (25), kimya (21) və fizika (18) fənləridir.

İmtahanda müəssisələrdə tədris olunan ixtisaslar üzrə fənn proqramına aid 40, tədris metodikası və təlim strategiyasına aid 20 test tapşırığı olmaqla hər bir namizədə, ümumilikdə, 60 test tapşırığı təqdim edilir. Test tapşırıqlarının yerinə yetirilməsi üçün ayrılan 90 dəqiqədə keçid balını toplamaqla ən yüksək nəticə göstərən namizədlər müvafiq vəzifəyə təyin olunacaqlar. İmtahan nəticələri ilə mərkəzin internet portalında tanış olmaq olar.

Test imtahanları dekabrın 17-nə qədər davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Gələcəyin hüquqşünasları Orta İxtisas Polis Məktəbində olublar

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 25 iyun tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" və 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" sərəncamlarının icrası istiqamətində tədbirlər davam etdirilir. Növbəti belə tədbir Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində olub. Naxçıvan Dövlət Universitetində Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrlə keçirilən görüşdə nazirliyin Kadrlar şöbəsinin rəisi, polis kapitanı Rahin Əmirov və universitetin Hüquq fənləri kafedrasının müəllimi Tofiq Hüseynov çıxış ediblər.



Bildirilib ki, adıçəkilən sərəncamlar gələcək ixtisaslı kadrların yetişdirilməsində mühüm rol oynayan dövlət sənədləridir. Həmin sərəncamlardan irəli gələn vəzifələrin vaxtlı-vaxtında və keyfiyyətlə yerinə yetirilməsi bu baxımdan böyük əhəmiyyətə malikdir. Ona görə də universitetin Hüquq ixtisası üzrə təhsil alan tələbələri qrafik əsasında muxtar respublikanın müxtəlif hüquq-mühafizə orqanlarında olur, həmin təşkilatlarda həyata keçirilən tədbirləri, görülən işləri yaxından izləyir, onlara gələcək fəaliyyətləri dövrü görəcəkləri işlər barədə ətraflı məlumatlar verilir.

Sonra tələbələr ümumi kriminalistika sinfində nazirliyin İstintaq və təhqiqat şöbəsinin kriminalistik tədqiqatlar bölməsinin rəisi, polis mayoru Mirhəsən Seyidli ekspert-kriminalistin hadisə yerində iştirakının məqsədi, izlərin müasir texniki üsullarla aşkar edilib götürülməsi, foto və videoçəkilişlərin aparılması, eləcə də əl-barmaq izlərinin müxtəlif tozlar vasitəsilə real şəkildə götürülməsi, "PAPİLLON" canlı skaner kompleksi vasitəsilə əl-barmaq əkslərinin çıxarılması, hadisə yerindən götürülmüş izlərin eyniləşdirilməsi, avtoqəzalarda müasir lazer sistemi vasitəsilə məsafələrin daha effektiv ölçülməsi barədə məlumat verib. Söhbət zamanı əyani vəsaitlərdən istifadə olunub.

Tələbələrə həm də nazirliyin İstintaq və təhqiqat şöbəsinin xüsusilə mühüm işlər üzrə baş müstəntiqi, polis kapitanı Zaman Novruzi cinayət hadisələri ilə əlaqədar hadisə yerinə baxışın keçirilməsi, maddi sübutların götürülməsi, saxlanılması və digər istintaq hərəkətləri, eləcə də sənədləşmələr barədə slayd formasında nümunələr təqdim etməklə məlumat verib. Tələbələr Daxili İşlər Nazirliyinin arxivində saxlanılan müxtəlif xarakterli cinayət işlərinin materialları ilə tanış olublar.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**



Estafet

# Vətən var

Əzəldən bəri dilimizdən düşməyən Vətən məfhumu həssaslıqla yanaşdığımız mövzudur. Bəs nədir Vətən? Vətəni üstündə gəzib-dolandığımız quru torpaq parçası və ya müəyyən sərhədləri olan coğrafi məkan adlandıra bilərikmi? Axı uğruna minlərlə igidin canından keçdiyi, əsrlərboyu şairlərin vəsf etdiyi, dədə-babalarımızın qoynunda əbədi yuxuya daldığı torpağı, sadəcə, quru torpaq adlandırmaq olmaz. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs ziyarətgahdır. Onun suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz, kəndimiz, obamız bu torpaqlardadır. Vətən özündə bunlar kimi minlərlə mənanı əks etdirir. Ən əsası da o, əsrlərboyu bu torpağın şirin-şirin layla çaldığı şəhidlərin ən dəyərli mirasıdır.

Tarix hər zaman müxtəlif qəhrəmanlıqlara, unudulmaz zəfərlərə şahidlik edib. Əlbəttə, danılmaz faktdır ki, türklər bu zəfərlərin əksəriyyətinin müəllifi olub. Unudulmaz sərkərdələrin çoxunun türk olması da göz önündədir. Bunu, sadəcə, təsadüf saya bilmərik. Çünki türklərin tək amalı Vətənin bütövlüyünü qorumaq, onu ucalara daşımaq olub. Vətəni və vətəndaşı sevmək kimi böyük bir əxlaqi keyfiyyət məhz türklərin sahib ola biləcəyi duyğulardır. Dinimizin əmri, Uca Rəbbimizin razı qaldığı əməldir.

Rəvayətlərdən birində "Vətəni sevmək Allaha imandandır" buyurulmuş, Vətən sevgisinin əhəmiyyəti ön plana çəkilmişdir. Qəlbində Allaha imanı olan hər bir kəsin xalqına və Vətəninə də sevgisi olacaqdır.

Bir hədisdə Vətəni qorumağın əhəmiyyətini bildirən Məhəmməd Peyğəmbər belə buyurmuşdur: *"Sərhəd boyunca Vətəni qoruyan gözləri cəhənnəm atəşi yandırmayacaqdır, Allahın razılığı üçün Vətən sərhədlərini qoruyanlara isə daim savab yazılacaqdır".*

Vətən üçün mübarizəyə müxtəlif aspektlərdən yanaşa bilərik. Bu mübarizəyə yalnız silahla mübarizə cəhətdən baxmayaq. Ölkə bütövlüyünü öz əsərlərində təbliğ edən ədəbiyyat və incəsənət xadimləri də mədəniyyət sahəsindəki "silahlı qüvvəmiz" hesab edilə bilər.

İllər ötür, dövr dəyişir, lakin bizim üçün dəyişməyən dəyərlərin öncülü olan Vətən sevdası heç zaman dəyişmir. Ötən əsrin əvvəllərində müqəddəs amal uğrunda şiddətli mübarizə aparmış siyasi xadimlərimiz haqqında danışmaq istəyirəm. Dünya tarixinə bütün müsəlman aləmində ilk respublika kimi daxil olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də yaradılması, heç şübhəsiz ki, Ə.M. Topçubaşov, F. Xoyski, N. Yusifbəyov, H. Ağayev və Azərbaycanın XX əsrin başlanğıcındakı siyasi və ziyalı elitasının digər görkəmli nümayəndələrinin məqsədyönlü, fədakar əməyinin nəticəsi idi.

Əsrin sonlarında isə dövlətçilik, Vətən uğrunda mübarizədə görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin geniş fəaliyyəti öz məntiqi nəticəsini verdi. ***"Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!"*** kəlamı ilə özünə əbədi yol seçən lider ömürboyu bu amaldan dönməmişdir. Bu gün əbəs deyil ki, milyonlarla insanın sevgisini qazanıb. Hazırda Vətən uğrunda qətiyyətli mübarizənin davamçısı ümummilli liderin yolunu davam etdirən dövlətçilik ideologiyasını rəhbər tutan Prezident cənab İlham Əliyevdir.

Vətənə, ulu öndərin ümummilli ideyalarına sədaqəti, doğma diyarın tarixinə, milli dəyərlərinə, mənəvi irsinə tükənməz sevgini bir gənc kimi muxtar respublikanın rəhbəri, Ali Məclisin Sədri cənab Vasif Talıbovdan öyrənməyə çalışırıq. Mən də Babəklərin, Koroğluların, Mübarizlərin, Xudayarların və onlar kimi Vətən sevdalı insanların anadan olduğu, boya-başa çatdığı bu torpağın, bu Vətənin vətəndaşı olduğum və damarlarımda türk qanı daşıdığım üçün çox xoşbəxtəm. İstərdim ki, qeyd etdiyim şəxslər kimi bu Vətənə, bu torpağa bacardığım qədər faydam toxunsun. Bu hər kəsin vicdan borcudur. Çünki bu Vətən min bir əziyyətlə, əsrlərboyu davam edən mübarizənin nəticəsində var olub və hər zaman mövcud olacaqdır. Fikirlərimi Türkiyənin "İstiqlal marşı"ndan bir parça ilə sonlandırmaq istəyirəm:

*Kim bu cənnət Vətənin uğrunda olmaz ki fəda?*
*Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!*
*Canı, cananı, bütün varımı alsın bu xuda,*
*Etməsin tək Vətənimdən məni dünyada cüda.*
*(Mehmet Akif Ərsoy)*

**Aysel NURİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# Fövqəladə hallara hazırlıq tədbirləri diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası cari ilin noyabr ayında da təmin edilib.*



Hesabat dövründə "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətində qərargah məşqləri keçirilib. Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin nazirliyin struktur qurumları ilə birgə "Uzunoba Su Anbarında baş vermiş fövqəladə hadisənin qarşısının alınması zamanı idarəetmənin təşkili" mövzusunda və Naxçıvan şəhər, Babək, Şərur və Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri ilə potensial və yanğın təhlükəli obyektlərdə taktiki-xüsusi təlimlər keçirilib.

Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə Fövqəladə Hallar Nazirliyinə verilən tapşırıqların icrası ilə əlaqədar standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının, digər texniki avadanlıqların istismarına yol verilməməsi məqsədilə Naxçıvan şəhərində fəaliyyət göstərən 59 ticarət obyektində təkrar baxış-yoxlamalar keçirilib. Muxtar respublikada fəaliyyət göstərən idarə və təşkilatlara məxsus qazanxanalar yoxlanılıb, təbii qazdan təhlükəsiz istifadə edilməsinə nəzarət olunub, yanğın-partlayış və dəm qazı təhlükəsizliyinə aid maarifləndirici söhbətlər aparılıb.

Naxçıvan şəhərində quraşdırılan sərnişin liftlərinin saz vəziyyətdə saxlanılmasına və təhlükəsiz istismar edilməsinə nəzarət edilib, 12 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə baxış-yoxlamalar aparılıb. Hesabat dövründə muxtar respublikada mülki müdafiə işinin təşkili diqqətdə saxlanılıb, Naxçıvan Dövlət Texniki, həmçinin Naxçıvan Tibb və Naxçıvan Musiqi kolleclərində maarifləndirici tədbirlər keçirilib.

Muxtar respublika ərazisində yanğın təhlükəsizliyi tələblərinin etibarlı təmin olunması və yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 277 obyektdə yoxlamalar keçirilib. 784 qazanxanada texniki və yanğın təhlükəsizliyi vəziyyətinə baxılıb, mövsümi qazanxana işçiləri təlimatlandırılıb, sertifikatı olan şəxslərin işə cəlbi üçün obyekt rəhbərləri ilə maarifləndirici söhbətlər aparılıb. 356 nəfər qazanxana maşinisti ixtisası üzrə kurslara cəlb olunub, 281 nəfər kursu başa çatdırıb. Hazırda, ümumilikdə, 75 nəfər qazanxana maşinisti ixtisası üzrə kursların davam etdirir.

İctimai yaşayış binalarının mənzillərində istilik enerjisi itkisinin qarşısını almaq məqsədilə mərkəzləşmiş və fərdi qazanxanalara, mənzillərə gedən su boru xətlərinə aidiyyəti qurumların vəzifəli şəxsləri ilə birgə baxışlar keçirilib. Yaşayış məntəqələrində təbii qazdan və elektrik enerjisindən istifadə zamanı israfçılığın qarşısının alınması və yanğın təhlükəsi yarada biləcək sahələrin ləğv edilməsi məqsədilə 3012 şəxsi yaşayış evinə baxış keçirilib, yanğın cəhətdən təhlükəli olan 31 elektrik, 154 şlanqla çəkilən qaz xətti dəyişdirilib, 66 qazla işləyən su qızdırıcının, 212 tez qatlanan tüstü borusunun istismarı dayandırılıb, 65 təbii qazsızması aradan qaldırılıb.

Hesabat dövrü ərzində muxtar respublikada yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə, ümumilikdə, 18 milyon kvadratmetrə yaxın ərazi xüsusi məhlullarla dezinfeksiya edilib. Dezinfeksiya tədbirlərinə gündəlik olaraq nazirliyin 14 xüsusi təyinatlı avtomobili, 79 nəfər şəxsi heyəti cəlb olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Voleybol birinciliyi başa çatıb

*Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbin idman zalında Naxçıvan şəhər tam orta məktəblərində yaradılan idman klublarının qız komandaları arasında keçirilən voleybol birinciliyinə yekun vurulub.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkil etdiyi birincilikdə 10 komanda mübarizə aparıb. Beynəlxalq Voleybol Federasiyasının mövcud qaydalarına əsasən keçirilən birinciliyin yekununa əsasən "Qarabağ" finalda "Mübariz" komandasını məğlub etməklə, qalib adını qazanıb. "Zirvə" komandası birinciliyi üçüncü yerdə başa vurub.



Sonda yer tutan komandalara təşkilatçıların diplomları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir. Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 21 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 1 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür.***

Muxtar respublikada ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə üstünlük verilir. Bu məqsədlə Culfa rayonunun Əbrəqunus kəndində rayon bələdiyyələrinin iştirakı ilə ekoloji-hüquqi maarifləndirici tədbir keçirilmiş və geniş ictimaiyyətin məlumatlandırılması məqsədilə kütləvi informasiya vasitələrində işıqlandırılmışdır. Keçirilən maarifləndirmə tədbirlərində ətraf mühitin mühafizəsi, məişət və tikinti tullantılarının idarə olunması, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır. Ay ərzində ekoloji monitorinqlər də davam etdirilmişdir. Bu məqsədlə Şərur, Sədərək, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 27-dən çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və mərkəzi avtomobil yollarının kənarlarında yerləşən yaşıllıq zolaqlarındakı mövcud vəziyyət öyrənilmişdir. Monitorinqlər zamanı bir sıra çatışmazlıqlar da qeydə alınmış, onların aradan qaldırılması üçün icrası məcburi tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında hesabat ayı ərzində Araz və Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülərək analiz aparılmışdır. Nəticədə, sularda çirklənmə hallarının yol veriləbilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.



Hesabat ayında yaşıllaşdırma tədbirləri ting və toxumla əkin işləri çərçivəsində davam etdirilmişdir. Həmçinin Quşçuluq, Qoşadizə tinglik sahələrinə və yeni əkilmiş meyvə bağlarına 12 ton üzvi gübrə gətirilmiş, bir qismi ərazilərə paylanmışdır. Ümumilikdə, 12,8 hektar sahədə yeni meyvə bağları salınmışdır. Ötən illərdə salınmış meyvə bağlarında bərpa işləri plansxemə uyğun olaraq davam etdirilmiş, ümumilikdə, 17 hektar sahədə bərpa işləri görülmüşdür. Toxumla əkin işləri şırım üsulu ilə davam etdirilmişdir. Ümumilikdə, 25,7 hektar sahədə toxumla əkin aparılmışdır. Ötən ay 16 min 583 müxtəlif meyvə, meşə tingləri, 3248 üzüm kolu, 233 həmişəyaşıl tingindən istifadə olunmuş, 643 kiloqram toxum əkilmişdir. Növbəti illərdə tingə olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə Qoşadizə, Xətai və Quşçuluq ərazisindəki tinglik sahələrində 2 hektar sahədə torpaq hazırlığı işləri aparılmış və 1,5 hektar sahədə yeni toxmacarlıq salınmışdır. Noyabr ayı ərzində toxum bölgüsünə uyğun olaraq 620 kiloqram müxtəlif meyvə və meşə toxumları tədarük olunmuşdur.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə hamiliyə verilmiş Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisasının tələbələri Meşələrin İnkişafı İdarəsinin tinglik sahəsində toxmacarlıqların salınması işləri ilə tanış olmuş, onlara yaşıllıqların salınması üçün ting ehtiyatının yaradılması sahəsində aparılan işlər, aqrotexniki qulluq işlərinə dair geniş məlumat verilmiş və tələbələr toxmacarlıqların salınmasında iştirak etmişlər.

Təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə təyin edilmiş ödənişlərin icrasına nəzarət həyata keçirilir, ödənişlərin dövlət büdcəsinə köçürülməsi davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

"Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 75-AF-351 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ramiyyə Əkbərova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 1051**